**Afaq Ramiz MƏMMƏDOVA,**

**Xanimqız Rüstəm RÜSTƏMOVA**
ADPU-nun nəzdində
Azərbaycan Dövlət Pedagoji Kolleci
E-mail:afaq.memmedova1981@gmail.com
*Qərbi Kaspi Universiteti, Bakı, Azərbaycan*

# XƏSTƏLİKLƏRİN MÜAYİNƏSİ VƏ MÜALİCƏSİ ZAMANI PSİXOLOJİ ASPEKTLƏR

**Xülasə**

Bu işdə, xəstəliklərin müayinəsi və müalicəsi zamanı psixoloji yanaşma problemləri tədqiq edilmişdir. Müalicə proseslərində psixoloji aspektlər ön plana gətirilmişdir. Psixologiyanın elmi yeniliklərinin səhiyyədə tətbiq imkanları analiz edilmişdir. Göstərilmişdir ki, psixoloji yanaşmalar bir sıra problemlərin həllini daha da asanlaşdırır. Müəyyən edilmişdir ki, düzgün psixoloji yanaşma zamanı xəstələr özlərini daha yaxşı ifadə edə bilirlər. Ona görə də həm onların xəstəliklərinin diaqnozu düzgün olur, həm də müalicə prosesi daha sürətli olur. Xəstəliklərin müalicəsi zamanı yaş xüsusiyyətlərinin və peşə amillərinin nəzərə alınmasının vacibliyi göstərilmişdir. Müəyyən edilmişdir ki, yaş kateqoriyası mühüm əhəmiyyət daşıyır. Bəzi yaş dövrlərində xəstələr sağalmaq uğrunda daha çox mübarizə aparırlar. Bəzi yaş dövründə olan xəstələr isə bir qədər laqeyd yanaşırlar. Müəyyən edilmişdir ki, bu psixoloji məqamlar xəstəliyin müalicəsi dövründə mühüm əhəmiyyət daşıyır. Anatomiyanın psixologiya ilə əlaqələri araşdırılmış, müəyyən edilmişdir ki, hüceyrələrin, toxumaların və orqanların uzun müddət sağlam qalmasında və xəstəliklərdən daha tez sağalmasında psixoloji amillərin təsiri mühümdür.

**Açar sözlər**: xəstəlik, müalicə, tibbi psixologiya, yaş xüsusiyyətləri

**UOT:**80
**DOI:** https://doi.org/ 10.54414/PEJE6485

## Giriş

Məlumdur ki, elm və müasir texnologiyalar inkişaf etdikcə, globallaşma və sosiallaşma baş verdikcə dünyada baş verən proseslərin yayılması, insanlara təsir etməsi də dəyişir. Ona görə də insanların baş verən hadisələrə psixoloji yanaşması da dəyişir. Sosiallaşmanın sürətlə getməsi nəticəsində insanların ünsiyyəti zamanı yaranan yeni psixoloji problemlər də yaranmağa başlamışdır. Ona görə də hər bir prosesin öyrənilməsi zamanı psixoloji nüanslara diqqət yetirilməsi və nəzərə alınması vacibdir. Psixologiya elminin qarşısında duran əsas məsələlərdən biri də budur ki, ətrafda baş verən proseslərə yanaşma tərzini müəyyən etsin. Son zamanlarda bir çox sahələrdə o cümlədən iqtisadiyyatda psixoloji yanaşmalara mühüm əhəmiyyət verilir. Müəyyən edilmişdir ki, insan fəaliyyəti nəticəsində psixoloji əsaslar dəyişmişdir. Əgər əvvəllər insan davranışının əsasını qadın-kişi münasibətləri təşkil edirdisə, indi onun əhəmiyyəti getdikcə azalmaqdadır. Belə olduğu halda yeni psixoloji amillər daha ön plana çıxmaqdadır. Belə amillərdən biri də aqressiyadır. İnsanların ünsiyyəti zamanı yaranan aqressiya işin keyfiyyətinə birbaşa təsirini göstərən amillərdəndir. Ona görə də hər bir prosesin psixoloji aspektlərinin araşdırılması zamanı bu amillər nəzərə alınmalıdır. Müəyyən edilmişdir ki, aqressivlik iqtisadi münasibətlərə də öz təsirini göstərir. Bir çox tədqiqatçılar yoxsulluğu aqressivlik göstəriciləri vasitəsilə iqtisadi inkişaf tempi ilə əlaqələndirirlər [1,2].

Müasir psixologiyanın əsastədqiqat sahələrindən biri də tibb psixologiyası istiqamətidir. Son zamanlar bir sıra xəstəliklərin müalicəsi zamanı psixoloji amillərin təsirindən istifadə edilir. Ona görə də bu istiqamətdə olan fundamental və təcrübü tədqiqatlar da davam etdirilir [3,4]. Tibb psixologiyası xəstəni müalicə edən həkimin fəaliyyətinin və xəstənin özünün davranışının, onun gigiyena, profilaktika,

diaqnostika, müayinə, müalicə, ekspertiza və reablitasiyasının psixoloji aspektlərini öyrənən istiqamətdir. Tibb psixologiyasının müxtəlif sahələri əhatə edir. Bunlara misal olaraq: klinik psixologiya, somatopsixologiya, patopsixologiya, psixiatriya, neyropsixologiya, ümumi tibb psixologiyası, psixoprofilaktika, psixokorreksiya, psixogigiyena, kimi bölmələri göstərmək mümkündür. Bu bölmələrin hər biri pz istiqamətinə uyöun olaraq xəstələrin müalicə edilməsi zamanı mühüm əhəmiyyət kəsb edirlər. Göstərilən istiqamətdə müəyyən xəstəliklərə malik olan insanların müayinə və müalicəsi zamanı onların psixoloji vəziyyətinin qiymətləndirilməsi, müalicə zamanı onların psixoloji durumuna uyğun olaraq davranılması vacibdir. Bu bölmələrin hər birinin öz xüsusiyyətləri vardır. Patopsixologiya və psixoterapiya, psixikasında və davranışlarında müəyyən qüsurlar mövcud olan adamlarla işin aparılmasına xidmət edir. Bu insanlar ilə işin aparılması zamanı xüsusi davranış tələb olunur. Psixologiyanın bu sahələrinin başlıca vəzifəsi xəstələrdə psixi pozğunluğun səbəblərini öyrənir və onu aradan qaldırmaq yollarını araşdırır [5,6]. Psixodiaqnostika müasir psixologiya elminin yeni sahələrindən biridir. Bu elm sahəsi, insanların psixi xassə və proseslərinin inkişaf xüsusiyyətləri haqqında elmi cəhətdən yoxlanmış, bu xassə və proseslər haqqında əsaslı məlumat əldə etməyə imkan verən metodların (üsullarım) köməyi ilə qiymətləndirilməsinin nəzəriyyəsi və o cümlədən praktikası ilə məşğul olur. Bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, burada müasir psixologiya elminin yalnız bir qismi haqqında ümumi məlumatlar verildi. Psixologiya elminin insanların göstərdikləri fəaliyyət istiqamətlərinə uyğun olaraq mütəlif bölmələri mövcuddur. İdman psixologiyası, kosmik psixologiya, əmək psixologiyası, incəsənət psixologiyası, eksperimental psixologiya, menecment psixologiyası, etnik psixologiya kimi müxtəlif sahələrinin özünəməxsus predmeti və vəzifələri vardır.

Yuxarıda göstərilən məlumatlardan görünür ki, müasir psixologiya elmi digər elmlərlə qarşılıqlı əlaqə şəklində öyrənilir. Tibb, iqtisadiyyat kimi sahələrlə birbaşa əlaqədardır. Ona görə də bu sahələrdə insanların psixoloji tədqiqatlarını aparmaq, onların əsasında statistik təhliillər aparmaq və bu sahələrdə yaranan psixoloji problemləri əvvəlcədən proqnozlaşdırmaq lazımdır. Tədqim edilən işdə, tibb psixologiya istiqamətində tədqiqatlar aparılmışdır. Xəstələrin müalicəsi və müayinəsi zamanı psixoloji amillərin nəzərə alınması, qiymətləndirilməsi və bu məlumatlardan müalicə prosesində istifadə edilməsi göstərilmişdir.

## Tədqiqat metodları

Tədqiqat işinin yerinə yetirilməsi zamanı tibbi psixologiyanın problemlərinin analiz edilməsi, müqaisə edilməsi metodlarından istifadə edilmişdir. Xəstələrin müayinə edilməsi və müalicəsi zamanı onların psixoloji durumunun müalicə prosesinə təsiri araşdırılmış və psixoloji durumdan istifadə edərək müalicə metodları göstərilmişdir. Bu metodların müxtəlif peşa sahələrində çalışan insanlar üzərində tətbiq etməklə müqaisə əsasında təhlillər aparılmışdır. Psixoloji vəziyyətin düzgün qiymətləndirilməsinin, xəstələrin müalicə prosesində daşıdığı əhəməiyyət qiymətləndirilmişdir.

## Nəticələrin müzakirəsi

Məlumdur ki, insanların psixoloji durumun onların həyatına mühüm təsir göstərən amillərdən biridir. İqtisadiyyat sahəsində aparılmış tədqiqatlardan görünür ki, psixalogiyanın öyrənilməsi, insanlarla ünsiyyətin düzgün yaradılması iqtisadi artıma birbaşa təsir göstərir. Son illərdə iqtisadiyyat elm sahəsində verilmiş Nobel mükafatları arasında idtisadiyyat psixologiyası istiqamətinə verilmiş mükafatlar xüsusi yer tuturlar. Uzun illər ərzində toplanılmış statistik məlumatlar və bu məlumatlar üzərində aparılmış təhlillər göstərir ki, psixoloji amillərin istənilən sahədə güclü təsiri vardır. Belə sahələrdə biri də səhiyyə sahəsidir. Müəyyən edilmişdir ki, tibbi psixologiyanın iki mühüm istiqaməti vardır. Bunlardan birincisi xəstənin psixoloji durumu, digəri isə həkimin psixoloji durumudur. Məlumdur ki, əgər həkimin psixoloji durumu yüksək səviyyədə olmazsa, o zaman xəstəni düzgün müalicə etməsi mümkün deyildir. Əgər həmin iş günündə həkimin psixoloji vəziyyəti normal deyildirsə, o zaman həmin gün həkimin xəstələri qəbul etməsi, müayinə və müalicə etməsi məqsədəuyğun hesab edilmir. Xəstənin psixoloji durumunun nəzərə alınması da iki amildən asılıdır. Birinci amil müayinə prosesidir. Bəzi xəstələr öz xəstəliklərinin yaranması səbəbini, əsas təsir effektlərini gizlədirlər. Bu zaman onların müalicəsi də müəyyən çətinliklər törədir.

Müalicənin effektiv alınması üçün xəstələrin səmimi olaraq bütün hiss etdiklərini, yaşadıqlarını və istəklərini etiraf etmələri şərtdir. Lakin bu hər zaman alınmır. Çünki xəstəlikərin yaranması çox zaman həmin xəstələrə ətrafdakı insanların irad tutduqları məsələlər səbəb olur. Ona görə də onların etiraf etdikləri təqdirdə psixoloji olaraq basqı altında qalmaları təhlükəsi yaranır. Bu səbəbdən də onlara etiraf etmələri üçün psixoloji olaraq sərbəstlik vermək lazımdır. Həkimin dinlədiklərinin üçüncü şəxsin eşitməyəcəyi rahatlığı yarandığı təqdirdə xəstələr tam şəkildə etiraf edirlər. Bu zaman müalicənin aparılması üçün həkimlərdə daha rahatlıq yaranmış olur. Xəstənin psixoloji durumu ilə əlaqədar olan ikinci amil isə müalicə prosesidir. Müalicə prosesi ərzində xəstənin yüksək əhval-ruhiyyədə olması, onların daha tez müddətdə sağlamlıqlarına qovuşmasına səbəb olur. Ona görə də xəstəliyin müalicəsi müddətində xəstələrin ən sevdiyi ərzaqlarla qidalanması təmin edilməlidir. Onlara xoş olan insanlarla ünsiyyət yaradılmalıdır. Qəbul etmələrində çətinlik yaranan dərmanları, daha rahat şəkildə qəbul edilməsi mümkün olan əvəzedici dərmanlarla əvəz edilməlidir.

Yuxarıda aparılan təhlillərdən məlum olmuşdur ki, tibbi psixologiyada həm həkimin, həm də xəstənin psixoloji durumunun müalicə prosesinə böyük təsiri vardır. Lakin bu amillərdən fərqli olaraq həm də müalicə prosesinə birbaşa təsir göstərən başqa göstəricilər də mövcuddur. Bunlara misal olaraq xəstəliyin psixoloji təsirlərini, yaş xüsusiyyətlərini, peşə xüsusiyyətlərini göstərmək mümkündür. Bu amillərin hər birinin tədqiqata cəlb edilməsi və nəticələrin təhlil edilməsi vacibdir. Xəstənin psixoloji durumuna təsir göstərən başlıca amillərdən biri də xəstəliyin xüsusiyyətidir. Elə xəstəliklər vardır ki, onların nəticələri xəstədə qüsur yarada bilər. Belə xəstəliklər zamanı xəstələr psixoloji basqı altında olurlar. Xəstəliyin tam olaraq saöalacağı təqdirdə kənardan insanların ona qarşı sərgiləyəcəkləri ünsiyyət və davranışlar onlar üçün çox maraqlıdır. Ona görə də bəzi hallarda onlar sağalmaq istəmirlər. Çünki sağaldıqdan sonra əvvəlki insan olmamaq onlara psixoloji olaraq əziyyət verir. Belə xəstəliklərdən ən birincisi müəyyən orqanın amputasiya olunması nəticəsində sağalması mümkün olan xəstəliklərdi. Bu məqamda da iki amilin təsiri araşdırılmalıdır. Bu amillərdən birincisi itirilmiş orqanın funksiyalarının digər orqanlar vasitəsilə əvəz edilməsinin mümkünlüyüdür. Bir ayağını itirmiş insanlarda yerimək probleminə uyğunlaşmaq müəyyən zaman alır. İkinci əsas amil isə amputasiya olunmuş orqana görə ətrafdakı insanların göstərdikləri münasibətdi. Bu proses baş verdikdən sonra qarşılaşdığı insanların onlara göstəricəkləri münasibət mühüm əhəmiyyət kəsb edir. Müalicə prosesi ərzində bunları düşündükcə xəstəyə müəyyən psixoloji çətinliklər yaradır. Göstərilən bu məsələ tibbi psixologiyanın əsas çətinliklərindən biri olması ilə yanaşı, həm də ümumilikdə cəmiyyətin problemlərindən biridir. İnkişaf edən cəmiyyətlərdə əlillər cəmiyyətdə baş verən proseslərdə aktiv olaraq iştirak edirlər. Digər cəmiyyətlərdə isə belə insanlar hər kəs tərəfindən müzakirə edilir, belə halın baş verməsinə görə qınanılırlar. Ona görə də insanlarla ünsiyyətdən qaçırlar. Belə halların qarşısının alınması üçün insanların təlimatlandırılması və belə insanların aktiv fəaliyyətinin bərpa edilməsi üçün iş yerlərinə cəlb edilməsinin təmin edilməsi zəruridir. Bu qəbildən olan psixoloji problemlərə həm də kosmetik olaraq qüsur yarada bilən xəstəliklər zamanı yaranan çətinliklərdir. Xüsusilə üzdə yaranan kosmetoloji problemlər qarşıdakı insanlar tərəfindən birmənalı qarşılanmır və müzakirə obyektinə çevrilir. Ona görə də belə problemlərin yaranacağı qorxusu altında müalicənin davam etdirilməsi kifayət qədər çətinliklər törədir. Bu zaman ya qüsurların qarşısının alınması ilə müalicə aparılmalı, ya da xəstənin sağlamlığının onun kosmetoloji görünüşündən daha vacib olduğunu vurğulamaqla psixoloji olaraq üstünlüyün əldə edilməsinə nail olunmalıdır. Xarici görünüşün qüsurlu olmasının yarada biləcəyi psixoloji durumlar xəstəliyin müalicəsi dövründə aradan qaldırılmalıdır. Belə xəstələr əsasən dəri-zöhrəvi xəstəliklərdən əziyyət çəkən insanlardır.

Tibbi psixologiyanın qarşılaşdığı problemlərdən biri də yaş xüsusiyyətləridir. Çoxsaylı müalicə nəticələrinin təhlili göstərir ki, yaş xüsusiyyətləri müalicə prosesinə ciddi təsir göstərir. Müəyyən yaşdan sonra xəstələr iki qrupa bölünürlər. Birinci qrup insanlar yaşamaq uğrunda mübarizə apararaq müalicəyə xüsusi diqqət yetirirlər. Belə xəstələrlə işləmək həkimlər üçün olduqca asandır. Çünki belə insanlar hiss etdikləri ən kiçik dəyişikliklər haqqında həkimə ətraflı məlumat verirlər. Həkimin göstərişlərinə olduqca ciddi riayət edərək

yaşamaq üçün yenidən toparlanmağa cəhd edirlər. İkinci qrup insanlar isə xəstəlikdən əziyyət çəkməkdənsə yaşamamağa üstünlük verənlərdir. Belə insanların xilas edilməsi həkimlər üçün kifayət qədər çətinliklər yaradır. Belə xəstələr müalicənin aparılması üçün prosedur qaydalarını pozur, mümkün qədər dərman qəbulundan imtina etməyə səy göstərirlər. Ən əsası isə hiss etdiklərini həkimdən və yaxınlarından gizlədirlər. Belə xəstələrlə müalicə zamanı paralel olaraq psixoloji dəstək sərgilənməlidir. Yaş xüsusiyyətlərinin ən çox büruzə verdiyi insanlar gənclərdir. Gənclər bir çox xəstəliklərə biganə yanaşırlar. Onlara xəstəliyin ciddiə fəsadlar yarada biləcəyi aşılanmalıdır. Müəyyən edilmişdir ki, gənclik illərində baş verən fəsadlar insan həyatının ən çox sarsılan zamanıdır. Gənlik illərində yaranan xəstəliklərin ən böyük fəsadları, onların təhsil almasına göstərilən təsirdir. Psixoloji olaraq çətinliklərlə üzləşən gənclər təhsil prosesində fəal olaraq iştirak edə bilmirlər.

Tibbi psixologiyada ən çox rast gəlinən problemlər peşə problemləri ilə bağlı olan məsələlərdir. Bir sıra peşə fəaliyyəti zamanı insanların səhhəti ilə bağlı müəyyən problemlər yaranır. Son zamanlar belə problemlər daha çox rast gəlinməkdədir. Oturaq işdə çalışan insanlarda kökəlmə baş verir ki, bu da bir çıra orqanlarda ciddi problemlərin yaranması ilə nəticələnir. Onuröa sütununda yaranan problemlər bəzən əməliyyatla nəticələnən ciddi fəsadlara səbəb olur. Qara ciyərin piylənməsi nəticəsində daxili orqanlarda daha çətin müalicə olunan problemlərə gətirib çıxarır. Ona görə də belə peşələrdə çalışan insanlar zamanı psixoloji olaraq üstün keçirməyə çalışmalıdırlar. Vaxtaşırı müəyyən hərəkətlər etməli və işdən sonra idmanla məşğulm olmalıdırlar. Lakin belə insanlarda peşə xəstəlikləri formalaşır ki, onlar yalnız öz vəzifələri ilə bağlı məsələləri düşünürlər ona görə də səhhətlərində yaranan problemlər daha da dərinləşir. Belə məsələlər tibbi psixologiyanın həll eləməli olduğu məsələlərdən hesab edilir. Məlumdur ki, elə peşələr vardır ki, həmin sahədə çalışan insanlar həftələrlə, bəzən isə aylarla ailələrindən kənarda yaşamalı olurlar. Belə insanlarda psixoloji problemlər yaranmağa başlayır. Uzun müddətli səfərlərdə olan gəmi heyətində çalışanlar buna nümunə ola bilər. Məlumdur ki, uzun müddət sularda üzən gəmilərdə çalışan insanlarda müəyyən xəstəliklərin yaranması mümkündür. Digər tərəfdən dalğaların təsiri ilə, okean sularında yaranan digər təhlükələrlə üzləşildiyi zaman stres faktorlarının təsirindən müəyyən xəstəliklər yarana bilir. Ona görə də belə xəstələrin müalicə edilməsi zamanı tibbi psixologiyanın nailiyyətlərindən istifadə edilməlidir.

Məlumdur ki, tibb elminin əsas sahələrindən biri anatomiyadır. Anatomiya orqanizmin orqanlarının, toxumalarının, hüceyrələrinin quruluşunu və formasını öyrənən elm sahəsidir. Xəstəliklər çox zaman müəyyən hüceyrələrin, toxumaların məhv olması ilə başlayır. Sonda isə orqanlardan birinin məhv olunmasına qədər irəliləyə bilir. Ona görə də anatomiyanın psixologiya ilə əlaqəli şəkildə öyrənilməsi çox vacibdir. Məlumdur ki, sağalması ən çətin olan xəstəliklərdən biri də ankoloji xəstəliklərdir. Bu zaman orqanlarda yaranmış xərçəng hüceyrələrinin qarşısını almaq müəyyən çətinliklər yaradır. Müəyyən edilmişdir ki, son illərdə bu xəstəlikdən sağalmış xəstələrin əksəriyyəti psixoloji olaraq həmin xəstəliyə qarşı dözümlü olan xəstələrdir. Hazırda informasiya bolluğudur. Ona görə də istənilən xəstə xəstəliyin yarada biləcəyi fəsadlar barəsində biliklər əldə edə bilir. Bu səbəbdən də belə xəstəliklərin müalicəsi zamanı xəstələrə psixoloji olaraq ətraflı məlumat verilməli və onları xəstəliklə mübarizəyə hazırlamaq lazımdır. Müasir anatomiya elmi bir çox digər eksperimental elmlərlə əlaqəlidir. Belə elm sahələri içərisində psixologiya elmi də xüsusi yer tutur. İlk baxışdan anatomiya elmi nəzəri elmlər sırasına daxil edilsə də, eksperimental anatomiya da inkişaf etməkdədir. Eksperimental anatomiya - bədənin quruluşunu diri orqanizm, başlıca olaraq diri heyvan üzərində öyrənərək eksperimental metodlardan istifadə edən elm sahəsidir. Məlumdur ki, son illərdə eksperimental və diaqnostik metodlar inkişaf etməkdədir. Rentgen şüalarının köməyi ilə arqanizmlərindaxili üzvlərinin vəziyyəti, ağ ciyərin vəziyyəti, ürəyin yerdəyişməsi, diafraqmanın və oynaqlarda sümük uclarının hərəkəti, bu sümüklərdəki sınıqlar öyrənilə bilir. Bütün bu biliklər əsasında anatomiy daha da inkişaf etmişdir. Hətta rentgen anatomiyası adlanan istiqamət də yaranmışdır. Təbiidir ki, bu metod vasitəsi ilə üzvlərin forması və vəziyyəti haqqında daha düzgün məlumat əldə etmək mümkündür. Ona görə də insanlarda psixoloji olaraq inam da formalaşmışdır. İnsanlar təcrübi yolla alınmış informasiyalara

daha çox inanaraq, xəstəliyə qarşı mübarizə aparmaqda davam edirlər. Bu deyilənlərdən görünür ki, tibbi psixologiyanın əsas istiqamətlərindən olan anatomiya və psixologiyanın əlaqəli şəkildə öyrənilməsi, bir sıra xəstəliklərin həllində vacib rol oynayır.

**Nəticə**

Tibbi psixalogiyanın bir sıra məsələləri təhlil edilmiş, problemlərin həlli yolları göstərilmişdir. Müəyyən edilmişdir ki, bir çox xəstəliklərin müalicəsi zamanı psixoloji amillər nəzərə alınmalıdır, peşə psixologiyası, yaş amilləri kimi faktorları nəzərə almaqla bir sıra problemlərin həllərini asanlaşdırmaq mümkündür. Ona görə də bu problemlər ayrı ayrılıqda analiz edilmişdir. Müayinə və müalicə prosesi zamanı həm həkimlərin, həm də xəstələrin diqqət eləməsinin vacib olduğu psixoloji vəziyyətlər göstərilmişdir. Müəyyən edilmişdir ki, bir sıra xəstələr müalicə aldıqları zamanı xəstəliyin yaratdığı fəsadların psixoloji təsirində olurlar. Bəzi xəstələr bu fəsadlardan qorxaraq xəstəliyin sağalmasını istəmirlər. Belə olduğu halda həmin xəstəliyə qarşı mübarizə aparmaq çətin olur. Göstərilmişdir ki, son zamanlarda xəstəliklərə psixoloji amillərin təsiri daha da yüksəlməkdədir. Belə ki, cəmiyyətdə gedən bir sıra proseslərin, o cümlədən iqtisadi və texnoloji inkişafın, qloballaşmanın və sosiallaşmanın təsiri ilə yeni psixoloji problemlər meydana gəlməkdədir. Xəstəliklərin müalicəsi zamanı belə problemlər də nəzərə alınmalıdır. Ona görə də son illərdə tibbi psixologiyanın bir sıra problemləri yenidən aktuallaşmışdır. Bu işdə, həmin aktual məsələlər göstərilmiş, analiz edilmiş və həlli yolları göstərilmişdir. Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, anatomiyanın psixologiya ilə sıx əlaqələri vardır. Hüceyrələrin, toxumaların və orqanların uzun müddət sağlam qalmasında və xəstəliklərdən daha tez sağalmasında psixoloji amillərin təsiri mühümdür. Bu proses, xərçəng hüceyrələrinin orqanizmdə yaranması və müalicəsi dövründə ankoloji xəstələrin psixoloji vəziyyəti əsasında analiz edilmiş və ümumiləşdirilmişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Y. You, New orientation of study on economic psychology and behaviour, Translational Neuroscience, 10, P.87-92, 2019.
2. S.A. Surkov, Psychological aspects of economic behavior of peaple, Universal Journal of Management, 2, P.40-47, 2014.
3. D.L. Tasto, P.M. Insel, The premenstrual and menstrual syndromes – a psychological approach, Contributions to Medical Psychology, Book chapter, P.153-166, 1977.
4. P. Soons, J. Denollet, Medical psychology service in dutch general hospitals: state of the art developments and recommendations for the future, Journal of Clinical Psychology in Medical Settings, 16, P.161-168, 2009.
5. О.А. Сагалакова, О.В. Жирнова, Д.В. Труевцев, Avatar-терапия: патопсихология трансформации отношений с «голосом» при слуховых галлюцинациях, Консультативная психология и психотерапия, 29, С.62-99, 2021.
6. Д.В. Труевцев, О.А. Сагалакова, О.В. Жирнова, Современная патопсихология и психопатология на этапе пересмотра классификаций психических болезней: осмысление логики взаимодействия, проблем и перспектив развития, Неврологический вестник, LIII, С.78-86, 2021.

**Афаг Рамиз МАМЕДОВА,**
**Ханымгиз Рустам РУСТАМОВА**
под АГПУ Азербайджанский Государственный Педагогический Колледж
Западно-Каспийский университет, Баку, AZ-1001, Азербайджан

## ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПРИ ОБСЛЕДОВАНИИ И ЛЕЧЕНИИ ЗАБОЛЕВАНИЙ

**Резюме**

В работе изучены проблемы психологического подхода при обследовании и лечении заболеваний. В процессе лечения на первый план выдвигаются психологические аспекты. Проанализированы возможности применения научных инноваций психологии в здравоохранении. Показано, что психологические подходы облегчают решение ряда проблем. Установлено, что пациенты лучше проявляют себя при правильном психологическом подходе. Поэтому диагностика их заболеваний правильная, а процесс лечения проходит быстрее. Показана важность учета возрастных особенностей и профессиональных факторов при лечении заболеваний. Определено, что возрастная категория имеет важное значение. В определенных возрастных группах пациентам сложнее выздороветь. Пациенты некоторых возрастных групп несколько индифферентны. Определено, что эти психологические моменты имеют важное значение при лечении заболевания. Исследована связь анатомии и психологии и установлено, что влияние психологических факторов важно для сохранения здоровья клеток, тканей и органов в течение длительного времени и более быстрого выздоровления от болезней.

**Ключевые слова:** болезнь, лечение, медицинская психология, возрастные особенности.

**Afag Ramiz MAMMADOVA,**
**Khanimgiz Rustam RUSTAMOVA**
Under ASPU Azerbaijan State Pedagogical College
Western Caspian University, Baku, AZ-1001, Azerbaijan

## PSYCHOLOGİCAL ASPECTS İN THE EXAMİNATİON AND TREATMENT OF DİSEASES

**Summary**

The work examines the problems of the psychological approach to the examination and treatment of diseases. During the treatment process, psychological aspects come to the fore. The possibilities of applying scientific innovations of psychology in healthcare are analyzed. Psychological approaches have been shown to facilitate solving a number of problems. It has been found that patients perform better with the right psychological approach. Therefore, the diagnosis of their diseases is correct, and the treatment process is faster. The importance of taking into account age characteristics and professional factors in the treatment of diseases is shown. It has been determined that the age category is important. In certain age groups, it is more difficult for patients to recover. Patients of some age groups are somewhat indifferent. It has been determined that these psychological aspects are important in the treatment of the disease. The connection between anatomy and psychology has been studied and it has been established that the influence of psychological factors is important for maintaining the health of cells, tissues and organs for a long time and faster recovery from illnesses.

**Key words**: disease, treatment, medical psychology, age characteristics.

**Daxil olub:** 02.12.2023